2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 fevral 2025-ci il tarixli 30 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 6 fevral 2025-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 113 saylı Qax - Şəki seçki dairəsi üzrə seçici Sultanov Müşfiq Məhəmməd oğlunun 2025-ci il fevralın 5-də Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 saylı müraciətini araşdıraraq **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrində və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər. Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir. Beləliklə, müraciət Seçki Məcəlləsinin və göstərilən Təlimatın aidiyyət qaydalarına dair tələblərin pozulması ilə daxil olmuşdur və ona görə də araşdırılması üçün aidiyyəti üzrə 113 saylı Qax - Şəki seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1.12-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü və 6-cı hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 113 saylı Qax – Şəki seçki dairəsi üzrə seçici Sultanov Müşfiq Məhəmməd oğlunun 2025-ci il fevralın 5-də Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov